yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur



2 MÜƏLLİM KİMİ MÜƏLLİM



3 APRELDƏN QALAN MƏNƏVİ TƏSURATLAR



5 QARDABANİ MERİ İLƏ MÜSAHİBƏ



6 XARİCDƏ TƏHSİL

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 APREL 2018-Cİ İL
№006 (65)

## GİORGİ KVİRİKAŞVİLİ: ETNİK AZLIQLAR ÖLKƏNİN NATO-YA İNTEQRASİYASI BARƏDƏ MƏLUMATLANDIRILMALIDIR



Baş nazir Giorgi Kvirikaşvili hökumətin iclasında Gürcüstanda yaşayan etnik azlıqların NATO-ya inteqrasiyanın ölkəyə verdiyi faydalar barədə məlumatlandırılmasının vacib olduğunu bildirib.

"Bu il NATO günləri bölgələrdə xüsusi qeyd olunur. Bu günlər həmçinin etnik azlıqların yaşadıqları bölgələrdə də keçirilir. Əhalimizin NATO-ya inteqrasiya barədə məlumatlandırılmasının səviyyəsi yüksək olmalıdır ki, vətəndaşlarımız ölkənin hansı faydaları əldə etməsi və ölkəmiz üçün sabitliyin necə vacib olmasını daha yaxşı anlasınlar", - deyə baş nazir bildirib.

Qeyd edək ki, aprelin 16-da start verilmiş NATO günləri may ayının 1-dək davam edəcək. NATO günləri çərçivəsində ilk görüş Marneuli rayonunda xarici işlər naziri Mixeil Canelidzenin iştirakı ilə baş tutub.

## TBİLİSİDƏ TÜRKİYƏ SƏFİRLİYİ QONDARMA "ERMƏNİ SOYQIRIMI" AKSİYASINA CAVAB AKSİYASI TƏŞKİL EDİB




Tbilisidə Türkiyənin Gürcüstandakı səfirliyinin yaxınlığında qondarma "erməni soyqırımı"nın 103-cü ildönümü ilə bağlı aksiya keçirilib.

Gürcüstanın erməni icmasının təşkil etdiyi aksiyada Ermənistan və Gürcüstanın bayraqları dalğalandırılıb. Aksiya iştirakçıları qondarma "erməni soyqırımı"nın tanınmasını tələb edərək, Türkiyə əleyhinə şüarlar səsləndiriblər.

Türkiyə səfirliyi ermənilərin aksiyasına cavab aksiyası təşkil edib. Səfirliyə gəlmiş Gürcüstanda yaşayan türkiyəli və azərbaycanlı gənclər, iş adamları Türkiyəyə dəstək ifadə ediblər.

Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan ermənilərin yalanlarından əl çəkmədiklərini qeyd edib. Səfir Türkiyəyə dəstək göstərən azərbaycanlılara təşəkkür edib.

Səfirlik qarşısında erməni terrorçularının qətlə yetirdikləri türk diplomatlarının fotoları sərgilənib.

Dəstək aksiyasının iştirakçıları Türkiyə, Azərbaycan və Gürcüstan bayraqları dalğalandırıblar. Aksiya "Erməni yalanlarına son!", "Ermənilərin Qarabağdakı soyqırımlarını unutmadıq!" şüarları ilə keçirilib.

Gürcüstan parlamentinin deputatı Azər Süleymanov Azərbaycan və Gürcüstan xalqına qarşı əsil soyqırımı ermənilərin törətdiyini bildirib.

Aksiyalarda təhlükəsizliyin təmin olunmasına çoxlu sayda polis cəlb olunub.

## AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİ İMZALANIB

Aprelin 25-də Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.



İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu"nu imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Sazişin tətbiqi ilə bağlı ikiillik (2018-2019) İş Proqramı"nı Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim və Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin müavini Mehmet Ceylan imzalayıblar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Əhməd Arslan imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair Protokol"u Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar imzalayıblar.

Qeyd edək ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev prezident seçildikdən sonra ilk rəsmi səfərini Türiyəyə edib.

## MAMUKA BAXTADZE: "GÜRCÜSTAN BU İL BÜDCƏ XƏRCLƏRİNİ 23,9%-DƏK AZALTMAĞI NƏZƏRDƏ TUTUR"

Gürcüstanın maliyyə naziri Mamuka Baxtadzenin bəyanatına əsasən, "Gürcüstan bu il büdcə xərclərini 23,9%-dək azaltmağı nəzərdə tutur".

Nazir bildirib ki, cari xərclər 2016-cı illə müqayisədə 26%-dən 24,6%-dək azalıb.

"Xərclərin azaldılması ilə iqtisadiyyatda yaxşı tendensiya əldə olunub və bu, davam etdiriləcək. Yaxşılaşdırılmış infrastruktur, gəlirlərin artırılması, idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması ilə biz əhatəli iqtisadi artıma mütləq nail ola biləcəyik", - deyə nazir bildirib.

M. Baxtadze qeyd edib ki, cəlb olunmuş investisiyaların köməyi ilə kapital xərclərin mənimsənilməsi ciddi olaraq sürətlənib.

"Ötən və cari ildə Rustavi şəhərindən Azərbaycan və Ermənistan sərhədinədək cənub magistralı, Kazbeqi, Kutaisi və Mestiya istiqamətlərində tunellərin tikintisi və digər iri infrastruktur layihələrin həyata keçirilməsinə başlanılıb. Bütün əsas investisiya layihələri beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilib", - deyə M. Baxtadze qeyd edib.



## MÜƏLLİM KİMİ MÜƏLLİM

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

***Müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verər. (M. K. Atatürk)***

Ötən günlərdə ölkə kanallarından birinin hazırladığı süjetin videosu "facebook" sosial şəbəkəsində diqqət və marağa səbəb oldu. Minlərlə insanın izləyib bəyəndiyi 12 dəqiqəlik video süjet müəllim haqqında idi. 41 yaşlı Lado Apxazava həqiqi müəllimdir, müəllim necə olmalıdır o cür müəllimdir. Vətəndaş təhsili fənnini tədris edən Lado müəllim digər müəllimlər kimi dərsə girib, tapşırıqları soruşub, qiymətini yazıb, tez-tez zəngin vaxtına nə qədər qaldığını bilmək üçün saata baxmır. Lado müəllim dərsləri məktəbin həyətində, təbiət qoynunda da keçir, gənclər arasında zorakılıqla mübarizə və sağlam həyat tərzi üçün "sinif yoldaşını yeməkdənsə, tərəvəz ye" şüarı ilə məktəbdə şagirdlərlə tərəvəzlərdən salat düzəldir, kələmdən dərs ləvazimatı kimi istifadə edir. Yeni və maraqlı layihələr həyata keçirir. Onun dərslərinə hətta başqa kəndlərin şagirdləri də qoşulurlar. Tələb elə, mübarizə apar və qazan! – Lado müəllimin şagirdlərə öyrətdiyi budur. Bu devizlə təhsil alan şagirdlərin tələbi ilə kənd çayının üzəri ilə körpü salınıb, yollarda piyada keçidləri çəkilib, kənddə zibil qutuları yerləşdirilib. Onun şagirdləri üçün vətəndaş cəmiyyəti özündən çox başqalarınının qayğısına qalmaqdı. Lado müəllim şagirdlərinə prinsipial, korrektiv və lazım olduğu halda arqumentli yox deməyi bacarmağı öyrədir.

Lado Apxazava indiyə kimi Lancxuti bələdiyyəsinin 9 məktəbində müəllim işləyib. Şagirdlərin dostu, sevimlisi olan Lado müəllimi qeyri-ənənəvi tədris metoduna, aktivliyinə, yeniliklərinə görə müxtəlif bəhanələrlə beş məktəbdən işdən xaric ediblər. Hal-hazırda bələdiyyənin Çibati kəndinin orta məktəbində, həmçinin həmin kənddə fəaliyyət göstərən kiçik ailə tipli sığınacaqda dərs deyir. Gürcüstanın təhsil sisteminin qocaldığını deyən Lado müəllim 2017-ci ildə Gürcüstanın ən yaxşı müəllimi seçilərək Milli Müəllim Mükafatını qazanır və 10 min lari alır. Aldığı pul mükafatını da şagirdlərinə xərcləyən Lado müəllim pulun bir hissəsinə sığınacaqdakı səkkiz nəfər şagirdinə paltarlar, bir hissəsinə həmin şagirdlərə mobil telefonlar və velosipedlər alır. Həmin puldan eyni məktəbdə çalışdığı müəllim yoldaşının kimya terapiyası üçün də verir. 372 lari və təxminən o qədər də sığınacaqdakı işi üçün maaş alan Lado müəllim dərsdən kənar vaxtlarında da şagirdlərə nəsə öyrədir – sığınacağın bağında çalışır, yer belləyir, əkib-becərir, yemək bişirir və sair. Bir sözlə Lado Apxazava bütün müəllimlər üçün əsl nümunədir.

Müəllimlik şərəfli olduğu qədər də məsuliyyətli peşədir. Cəmiyyətlərdə baş verən fəsadlarda valideynlərdən sonra müəllimlər günahkardır. Günahkardır ona görə ki, evdən çıxan uşaq məktəbdən keçərək cəmiyyət olur. Məktəb müəllimin evi, şagirdlər evladları olmalıdır. Məktəbi, şagirdi sevməyən, qorxu metodu ilə dərs əzbərlətdirən, keçdiyi fənnə aid kitabdan başqa kitab üzü açmayan, özünü inkişaf etdirməyən, dil öyrənməyən, öyrətməyən, dərs saatının bitməsini səbirsizliklə gözləyən müəllimlər də var. Və təəssüf ki, sayları çoxdur. Lado Apxazava isə təkdir. Bunu verilən mükafat da təsdiqləyir.

## GİORGİ QAXARİYA: TƏHLÜKƏSİZLİK OLMADAN HEÇ BİR İQTİSADİ İNKİŞAF DAYANIQLI OLA BİLMƏZ




Daxili işlər naziri Giorgi Qaxariya biznesmenlərlə görüşü zamanı iqtisadiyyatın vacib sahələrinin təhlükəsizliklə bağlı olduğunu qeyd edərək bildirib ki, təhlükəsizlik olmadan heç bir iqtisadi inkişaf tez və ən əsası dayanıqlı ola bilməz.

"Biz kifayət qədər kəskin təhlükələrlə üz-üzə olan regionda yaşayırıq. Çox yaxşı başa düşürük ki, iqtisadiyyatın turizm və tranzit, energetika kimi sahələri təhlükəsizliklə birbaşa bağlıdır", - deyə DİN rəhbəri bildirib.

G. Qaxariya iş adamlarını Daxili İşlər Nazirliyində həyata keçirilmiş islahatlarla tanış edib.

## GÜRCÜSTANIN SƏHİYYƏ NAZİRİ TÜRKİYƏNİN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞÜB



İspaniyanın Sidjes şəhərində keçirilən Ümumdünya Səhiyyə Təşkilatının regional iclası çərçivəsində Gürcüstanın səhiyyə naziri David Sergeenko ikitərəfli görüş keçirib. Nazir David Sergeenko və Xəstəliklərin Kontrolu Mərkəzinin rəhbəri Amiran Qamğrelidze Türkiyənin baş nazirinin müavini Receb Akdağla görüşüb. Receb Akdağ keçmişdə qonşu ölkənin səhiyyə müəssisəsinə rəhbərlik edib.

Görüşdə tərəflər sağlamlığın mühafizəsi sahəsində ölkələr arasında qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə ediblər. Türkiyənin baş nazirinin müavini və Gürcüstanın səhiyyə naziri iki ölkənin səhiyyə sistemində gedən reformalar haqqında təcrübələrini bölüşüblər.

## TƏHSİL VƏ ELM NAZİRİ AZƏRBAYCANA RƏSMİ SƏFƏR EDİB

Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli Azərbaycana rəsmi səfər edib. Nazir səfər çərçivəsində Azərbaycanın təhsil naziri vəzifələrini müvəqqəti icra edən Ceyhun Bayramovla görüşüb. Görüşdə tərəflər ali təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsi, tələbə və professor mübadilə proqramları və birgə elmi layihələr sahəsində əməkdaşlıq məsələlərini nəzərdən keçiriblər.

M.Çxenkeli Azərbaycana səfəri çərçivəsində Universitet Rektorlarının Beynəlxalq Assosiasiyasının (IAUP) illik konfransında iştirak edib.

Mixeil Çxenkeli və Azərbaycanın ali məktəblərinin rektorları arasında keçirilmiş görüşdə müzakirələr zamanı Azərbaycanın ali məktəblərində gürcü dili mərkəzinin yaradılması imkanları haqqında da danışılıb.

Görüşdə Gürcüstan və Azərbaycan universitetləri arasında işçi qrupun yaradılmasına dair razılıq əldə olunub. İşçi qrup iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsi istiqamətində fəaliyyət göstərəcək. Gürcüstan tərəfindən qrupa Qafqaz Universitetinin prezidenti Kaxa Şengeliya başçılıq edəcək.

İşçi qrupunun ilk görüşünün yaxın vaxtlarda Gürcüstanda keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, bu il Tbilisidə Avropanın bir sıra ali məktəbində gürcüşünaslıq mərkəzlərinin yaradılması barədə memorandumlar imzalanıb.

## QEYSƏRİYYƏ ƏMƏLİYYATLARININ ÇOXLUĞUNA GÖRƏ 15 DOĞUM EVİ CƏRİMƏLƏNİB

Bir illik göstəricilərə əsasən (keçən ilin mart ayından indiyə qədər) 15-ə yaxın doğum evi qeysəriyyə əməliyyatı sayının artmasına görə cərimələnib. Bu haqda ümum səhiyyə idarəsi departamentinin rəhbəri Maia Xomerik bildirib.

M. Xomerikin izahatına görə, cərimənin dəyəri qeysəriyyə əməliyyatı sayının limiti (800 lari) ilə doğuş limiti (500 lari) arasındakı fərqə (300 lari) və qeysəriyyə əməliyyatlarının sayına bağlıdır.

Qüvvədə olan qanunvericiliyə əsasən, fizioloji doğuşu ümum səhiyyə proqramı 500 lari, qeysəriyyə əməliyyatını isə 800 lari dəyərində məbləğlə maliyyələşdirir. Əgər qeysəriyyə əməliyyatı tibbi göstərici ilə deyil (fizioloji doğuş ana və uşağın həyatına təhlükəli olarsa) ananın öz istəyi ilə edilirsə dövlət 800 lari ödəmir, fizioloji doğuşun dəyərini – 500 lari ödəyir.

Xomerikin sözlərinə görə, sanksiya doğum klinikaları ilə bağlanmış müqavilədə 2017-ci ilin 1 martından qeyd olunub və nəticədə qeysəriyyə əməliyyatı sayının faiz göstəricisi azalmayan klinikalar cərimələnib. Bu müddət ilk əvvəl 6 ay nəzərə alınmışdı. Hökumətin yeni, 180-ci sərəncamına əsasən isə, sanksiyalar bir illik göstəricilərə əsaslanaraq hesablanacaq. Dəyişiklik yeni müqavilələrə daxil ediləcək.

Maia Xomerikin dediyinə görə, cərimələrin təyin edilməsinin məqsədi qeysəriyyə əməliyyatı sayının azaldılmasıdır.

Xəstəliklərin Kontrolu üzrə Milli Mərkəzin göstəricilərinə əsasən, Gürcüstanda 2016-cı ildə qeysəriyyə əməliyyatlarının ümumi sayı 43% təşkil edib. Bu isə, demək olar ki, Dünya Səhiyyə Təşkilatının standartlarından üç dəfə çoxdur.

## TÜRKİYƏDƏ NÖVBƏDƏNKƏNAR PREZİDENT VƏ PARLAMENT SEÇKİLƏRİ KEÇİRİLƏCƏK

Aprelin 20-si Türkiyə Böyük Millət Məclisində (TBMM) növbədənkənar prezident və parlament seçkilərinin keçirilməsi ilə bağlı təklif səsverməyə çıxarılıb. Təklif parlamentdə 386 səslə qəbul edilib.

Beləliklə, bu il iyunun 24-də Türkiyədə növbədənkənar prezident və parlament seçkiləri keçiriləcək.

Qeyd edək ki, təklifin müəllifləri Ədalət və İnkişaf Partiyası (AKP) və Milliyətçi Hərəkat Partiyasıdır (MHP).



Türkiyənin Ali Seçki Təşkilatının məlumatına əsasən, seçkilərdə 10 siyasi partiya mübarizə aparacaq. Məlumatda bildirilir ki, Ədalət və İnkişaf Partiyası (AKP), Müstəqil Türkiyə Partiyası (BTP), Böyük Birlik Partiyası (BBP), Cümhuriyyət Xalq Partiyası (CHP), Demokrat Partiyası, Xalqların Demokratik Partiyası, İYİ Partiya, Millətçi Hərəkat Partiyası (MHP), Səadət Partiyası və Vətən Partiyasının seçkidə iştirak etmək hüququ rəsmən təsdiqlənib.

Yeni seçki qanununa görə prezidentliyə namizəd olacaq şəxslər deputat mandatı uğrunda mübarizə apara bilməzlər.

## TÜRKİYƏ MÜSTƏQİL SƏNAYEÇİ VƏ İŞ ADAMLARI DƏRNƏYİNİN (MÜSİAD) TBİLİSİ ŞÖBƏSİNİN AÇILIŞI OLUB

Tbilisidə Türkiyə Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) Tbilisi şöbəsinin açılışı olub. Açılış mərasimində Türkiyə Millət Məclisinin üzvləri, MÜSİAD-ın rəhbəri Abdurrahman Kaan, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazgan, MÜSİAD-in Tbilisi şöbəsinin rəhbəri Mustafa Özgür Yücel, MÜSİAD-in Xaricdə Təşkilatlanma başçısı İbrahim Uyar və digər rəsmi şəxslər iştirak ediblər.



Tbilisi şöbəsinin açılış mərasimində çıxış edən MÜSİAD-in rəhbəri Abdurrahman Kaan qeyd edib ki, Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin dünyanın 77 ölkəsində 194 şöbəsi var və şöbələrin sayı getdikcə artır.



Tədbirə Gürcüstan iqtisadiyyat nazirinin müavini Giorgi Çerkezişvili, parlamentin azərbaycanlı deputatları Savalan Mirzəyev və Ruslan Hacıyev, Marneuli meri Temur Abazov, TİKA-nın Gürcüstan nümayəndəliyinin rəhbəri, türk iş adamları, Yunis Əmrə İnstitutunun nümayəndələri, Türkiyənin Gürcüstandakı səfirliyinin əməkdaşları, Azərbaycandan gələn 7 şirkətin rəsmi nümayəndə heyəti və jurnalistlər qatılıblar.

Tədbirdə qeyd olunub ki, MÜSİAD-ın açılışı təkcə Türkiyə, Azərbaycan və Gürcüstan iş adamları üçün deyil, dünyanın hər bir ölkəsinin şəhərlərində geniş imkanlar yaradacaq. 11 000-dən çox üzvü olan MÜSİAD hazırda təxminən 50 000 müəssisəni təmsil edir və bu müəssisələrdə təxminən 1,6 milyon insan çalışır.

MÜSİAD Xaricdə Təşkilatlanma Başçısı İbrahim Uyar çıxışında 2018-ci ilin sonuna qədər MÜSİAD-in dünyanın 100 ölkəsində şöbələrinin açılışı olacağını bildirib.

Qeyd edək ki, Tbilisidə yeni açılan MÜSİAD-ın şöbəsi Gürcüstan, Azərbaycan və Türkiyə iş adamlarının möhkəm birliyini yaradacaq, hər üç ölkənin iqtisadi inkişafına, dünya bazarlarına sərbəst çıxışına köməklik göstərəcək.

## SERJ SARKİSYAN İSTEFA VERİB

Ermənistanın baş naziri Serj Sarkisyan istefa verib. Bu barədə baş nazirin mətbuat xidməti məlumat yayıb.

“Sizə dövlət başçısı kimi sonuncu dəfə müraciət edirəm. Nikol Paşinyan haqlı idi. Mən səhv etmişəm. Yaranmış vəziyyətdə bir neçə çıxış yolu var idi. Lakin mən onların heç birinə getmirəm. Mən ölkənin rəhbəri vəzifəsini tərk edirəm”, – deyə Serj Sarkisyan bildirib.

Xatırladaq ki, aprelin 13-dən Sarkisyanın baş nazir seçilməsi əleyhinə etiraz aksiyaları başlayıb.



## APRELDƏN QALAN MƏNƏVİ TƏSURATLAR



Hacı Bəkiroğlu
*hacibakir@mail.ru*

*Bir aprel ayının da sonuna gəldik. Hər ay kimi bu aprel ayının da özünəməxsus xatirələri var. Bu xatirələr kimiləri üçün xoş təsuratlarla, kimiləri üçün də qəmlə doludur.*

*Gördüyüm və eşitdiyim bəzi hadisələr məni bu yazını qələmə almağa məcbur etdi.*

Mən bu xatirələr mövzusuna tamamən fərqli yöndən yanaşacam. Buna istər toy, istər bayram, istərsə də duyğu dolu anlar deyin.

Çox vaxt dini bayramlarımızı və dini yöndən əhəmiyyət kəsb edən gün və gecələrimizi xəfifə alaraq səssiz-sədasız qeyd etməyimizi keçmiş sovetlər birliyinin boynuna atırıq. O zamanlar icazə vermirdilər, qorxurduq... və sair kimi sözlərlə özümüzü qandırırıq. Sovetlər birliyinin süqutundan hardasa 30 ilə yaxın bir zaman keçib. Məni düşündürən budur ki, biz 70 illik əsarətin təsirindən 30 ildir çıxa bilmirikmi? Əslində bu təsiri üzərimizdə hiss etməyimiz öz zəifliyimizdən irəli gəlir.

Qeyd olunan hər xarici bayramları özümüzünmüş kimi mənimsəyib qeyd edirik, yeyib-içirik, əylənirik. Bəs özümüzün dini bayramlarımızdan və ya mübarək gün və gecələrimizdən xəbərimiz varmı?

Kvemo Kartli bölgəsində 500 minə yaxın, bəlkə də daha çox müsəlman yaşamaqdadır. Gəlin görək onlardan neçə faizi aprel ayının 13-nə rast gələn Merac qəndilini və ya 30-na rast gələn Bəraət qəndilini xatırladı və qeyd etdi?!

Elə müsəlmanlar tanıyıram ki, yeni il bayramı deyib 700-800 lari pul xərcləyir, ancaq Qurban bayramında bir qoyun almağa gələndə 200 lariyə qıya bilmirlər.

Qayıdaq mövzumuza. Bəlkə də heç Merac və ya Bəraət qəndillərinin nə olduğunu belə bilmirlər.

Merac kəlimə olaraq nərdivan, yüksəlmə mənalarına gəlir.

Müsəlmanların Məkkədən Mədinəyə hicrətlərindən bir il yarım əvvəl Peyğəmbərimizin xanımı Həzrət Xədicə və əmisi Əbu Talib vəfat edirlər. Bu da Peyğəmbərimizi çox üzür, bunun qarşılığı olaraq da Peyğəmbərimiz Rəcəb ayının 27-ci gecəsi öncə Məkkədən Qüdsdəki Məscidi Əqsaya, oradan da Allahın hüzuruna yüksəlir. Bu gecədə Peyğəmbərimizə 3 hədiyyə verilir: Allaha şirk (ortaq) qoşmayanların cənnətə girəcəyi, 5 vaxt namaz və Bəqərə surəsinin son iki ayəsi.

Bu gecə baş verənlər Həzrəti Peyğəmbərin böyük möcüzələrindən biri idi.

Bəraət qəndili isə Ramazanın müjdəçisi olaraq bilinir. Bu gecə Hicri təqvimlə Şaban ayının 15-ci gününə təsadüf edir. Peyğəmbərimizdən nəql olunan bir çox hədisdə bu gecənin bağışlanma gecəsi olduğu vurğulanır.

Bir də başqa bir dərdimizə qısaca toxunum. Bu da may ayında toy olmaz düşüncəmizdir. May ayında niyə toy etmək olmaz sualının cavabını bilməsəm də, müşahidə etdiyim bir şey var ki, o da may ayına edilən hörmətin Ramazan ayına edilmədiyidir. Əgər qurulan yuvaların daha xoşbəxt olmağını istəyiriksə, gəlin Ramazan ayına da may ayı qədər hörmət edək. Xeyr, səhv düşünməyin, Ramazanda toy etməyin demirəm, əksinə Allahın dilədiyi şəkildə edin ki, Allah da bu ailəyə gözəlliklər bəxş etsin.

*Hər zaman Allahın anıldığı zikr məclislərində və toy-düyünlərdə görüşmək ümidi ilə...*

# გარდაბნის მუნიციპალიტეტის მერის რამაზ ბუდაღაშვილის ექსკლუზიური ინტერვიუ გაზეთ „იენი იოლ"-თან

*– მოგესალმებით ბატონო რამაზ. ინტერვიუ დავიწყოთ იმით თუ რამდენს შეადგენს წელს გარდაბნის მუნიციპალიტეტის ბიუჯეტი?*

– მოგესალმებით. მადლობას გიხდით მობრძანებისათვის. წელს გარდაბნის მუნიციპალიტეტს მთლიანობაში 34 მილიონ ლარამდე აქვს ბიუჯეტი. საკმაოდ სოლიდური ბიუჯეტია და ამით ბევრ საქმესაც გავაკეთებთ.

*– დავიწყოთ ინფრასტრუქტურული პროექტებით. მუნიციპალიტეტში რა განხორციელდა და რომელი პროექტები იგეგმება ინფრასტრუქტურული კუთხით?*

– უკვე დაწყებულია სასმელი წყლის პროექტი და ხუთ სოფელს მიაწოდება წყალი. მეორე ეტაპი დაიწყება და მომავალი წლის მაისი-ივნისის თვეში ამ ხუთ სოფელს უკვე 24 საათიანი წყალმომარაგება ექნებათ. ძალიან დიდი პროექტია, პირველ ეტაპზე თანხა იყო გათვალისწინებული 22 მილიონი ლარი და ახლა 30 მილიონ ლარამდე დაემატა. ამ წყლის პროექტზე კიდევ შემოგვიერთდება სოფელი მუღანლო. მოგახსენებთ, რომ ჩვენ ინფრასტრუქტურის მხრივ სოფლებში უკვე ტენდერები გამოცხადებული გვაქვს. რამდენიმე ტენდერი უკვე შემოვიდა და გამარჯვებულებიც არიან. 8 სოფელში გზების რეაბილიტაციისათვის უკვე გამოცხადდა და 4 სოფელში ჩატარდა ტენდერი. ეს სოფლებია ჯანდარა, ნაზარლო, ქესალო და ვახტანგისი. დანარჩენ 4 სოფელში ალთაკლია, ყარათაკლია, სართიჭალა და ყარაჯალაშიც მთავრდება ტენდერები. ასევე ქალაქ გარდაბანში ვაპირებთ ეკლესიის მიმდებარედ არსებული სკვერის მოწყობას და ტერიტორიის კეთილმოწყობას. გზების რეაბილიტაციისათვის 2 მილიონ 800 ათასი ლარია გამოყოფილი. ასევე საპროექტო სამუშაოები მიმდინარეობს ქალაქ გარდაბნის შიდა გზების მოწესრიგება-მოასფალტებაზე. გამოცხადებულია ტენდერები კანალიზაციის პროექტებზე, მუხრან თელეთის, ლელაშხის, კრწანისის გზების რეაბილიტაციაზე, ასევე კორპუსების სახურავებზე, გარე განათებაზე. მრავალსართულიანი საცხოვრებელი კორპუსების ლიფტების მოწესრიგება იქნება და ახალი, თანამედროვე ლიფტები დამონტაჟდება. ქალაქ გარდაბნის შიდა ეზოების კეთილმოწყობის პროექტები გვაქვს, რომელიც რეაბილიტაციას ექვემდებარება. იქნება ბავშვებისთვის გასართობი მოედნების, დასასვენებელი პარკების მოწყობა. მოგეხსენებათ, ორი დიდი პარკი გვაქვს – მერიის მიმდებარედ, გვერდზე და „მეგობრობის სახლი"-ს პარკი. სამომავლოდ იგეგმება „მეგობრობის სახლი"-ს გვერდით მიმდებარე პარკის მთლიანი რეაბილიტაცია. ძალიან ბევრი პროექტები გვაქვს დაგეგმილი. ამ ჟამად თითქმის 40-მდე პროექტი ტენდერზე გვაქვს გამოცხადებული.

*– ბაგა-ბაღებთან დაკავშირებით თუ განხორციელდება რამე ცვლილება და რომელ ბაღებშია მოსალოდნელი რემონტი და ახალი მშენებლობა?*

– 20 საბავშვო ბაღში უკვე გამოცხადებული გვაქვს სარემონტო სამუშაოებზე ტენდერი. დაახლოებით აპრილის ბოლოს ყველა ტენდერი დამთავრდება. ქალაქ გარდაბანში 5 საბავშვო ბაღის რეაბილიტაციაზე, ასევე სოფელ ლემშვენიერაში, სართიჭალაში 2 საბავშვო ბაღზე, სოფელ ზემო და ქვემო თელეთში, საცხენისში, კრწანისში, ახალსოფელში, ნორიოში, მზიანეთში, ახალ სამგორში, მარტყოფის 2 ბაღზე, გამარჯვების საბავშვო ბაღზე გამოცხადებულია ტენდერი. ახალი ბაღის მშენებლობა დაწყებულია სოფელ ალთაკლია და ყარათაკლიაში, რომელიც პირველი ეტაპი დამთავრდა და მეორე ეტაპი გაგრძელდება. მიმდინარეობს პროექტების ექსპერტიზები. ასევე დაგეგმილი გვაქვს სოფელ სააკაძეში, გამარჯვებაში სულ ახალი ბაღების მშენებლობა.

*– როდის დაიწყება სარემონტო სამუშაოები?*

– ჯერ ხელშეკრულებები არ არის დადებული. სატენდეროდ არის გამოცხადებული. მაგრამ ჩვენ პირობები გვაქვს ჩატებული, რომ ახალი სასწავლო წლის დაწყებისას, აგვისტოს ბოლოსთვის, ამ ბაღების რემონტი უკვე იქნება დამთავრებული და სრულიად შესაბამის სტანდარტებში მოყვანილი. სააკაძის და გამარჯვების ბაღების პროექტები უკვე არის ექსპერტიზაზე გაგზავნილი. ეს ბაღები იქნება იმ სდანტარტების შესაბამისად რა სდანტარტებსაც ითვალისწინებენ თანამედროვე ბაგა ბაღები.

*– როგორც ვიცით რამდენიმე სოფელში საბავშვო ბაღი უკვე აშენებულია. როდის იქნება ახალი ბაღების გახსნა?*

– სოფელ ჯანდარაში, კალინინოში, ნაგებში, ვახტანგისში აშენებული არის ახალი ბაღი და ამ ბაღების მშენებლობები დამთავრებულია. აქაც დაწყებულია მეორე ეტაპი და გამოცხადებულია ტენდერი. ბაღების ეზოებისა და შიდა ინფრასტრუქტურის მოწყობის, წყლის შეყვანის პროცედურების დაუმთავრებლობის გამო ბაღი არ არის გახსნილი. შეყვანილია პროექტები და უკვე დევს საიტზე. ასევე გამოცხადებული და შესყიდული გვაქვს ინვენტარები ბაღებისათვის. წელს ყველა სოფელში სადაც არის არსებული ბაღები, იქნება რეაბილიტირებული. მუნიციპალიტეტის ტერიტორიაზე არსებული ყველა ბაღი იქნება თანამედროვე ტიპის ბაღი. ყველა სოფელი ახალ სასწავლო წელს შეხვდება ახალ ბაღში.

*– ბაღების რეაბილიტაციისათვის რამდენი თანხაა გამოყოფილი?*

– ბაღების რეაბილიტაციისთვის ადგილობრივ ბიუჯეტიდან დაახლოებით 4 მილიონზე მეტი თანხაა გამოყოფილი.

*– არის ზოგი ბაღები სადაც ერთ ჯგუფში 40 ბავშვია და ახალ გარემონტებული ბაღების შენობებში თუ იქნება ჯგუფების დამატება?*

– არის ბევრი ბაღი, რომელიც აქვს დიდი შენობა და გარემონტებულია მხოლოდ იმდენი ოთახი, რომ ბევრ ჯგუფს ვერ იტევს. იმიტომ ჩატარდება ამ ბაღების სრული რეაბილიტაცია, რომ ყველა ის ოთახი სდანტარტებში უნდა ჩაჯდეს, მერე არ იყოს ბაღები გადატვირთული. ამისთვის ჯგუფების გაზრდას ვაპირებთ. დამატებითი ჯგუფები იქნება.

*– როგორც გავიგეთ მოსახლეობის დიდი ნაწილი ჩივის სარწყავ არხებთან დაკავშირებულ პრობლემებს. ამ კუთხით წელს როგორ იქნება მდგომარეობა?*

– სარწყავ არხებზე მუშაობა დაწყებულია. სოფლის მეურნეობის სამსახურთან არსებობს სახელმწიფო მელორაციის სისტემა. დაწყებულია და გაკეთებულია ბევრი ცენტრალური არხი, თუნდაც ქესალო ნაზარლოში სულ ახალი ხაზის რეაბილიტაცია მოხდა და მშენებლობები დამთავრდა. ამ სეზონზე სარწყავი სისტემები სრულიად იქნება რეაბილიტირებული.

*– როგორც ვიცით განათლების სამინისტრომ სკოლების ბიუჯეტი გადასცა ადგილობრივ თვითმმართველობას. გარდაბნის მუნიციპალიტეტში ხომ არ იგეგმება რომელიმე სკოლის რემონტი ან მშენებლობა?*

– ჩვენ წელს დაგეგმილი გვაქვს სოფელ კუმისის და ახალსოფლის სკოლების რეაბილიტაცია. პირველ ეტაპზე იქნება სახურავის, ფანჯრების და კარების შეცვლა. მაგის საპროექტოზეც გამოცხადებული გვაქვს უკვე ტენდერი. ეს სკოლები არიან სავალალო მდგომარეობაში და საჭიროა ახალი მშენებლობა. სხვა სკოლებიც არიან სადაც რემონტი საჭიროა, მაგრამ ჯერ-ჯერობით ეს სკოლები ჩავთვალეთ საჭიროდ რადგან სავალალო მდგომარეობაში არიან.

*– კულტურული ღონისძიებების, ახალგაზრდებისათვის დასასვენებელი ადგილების შექმნის კუთხით რა იგეგმება მუნიციპალიტეტში?*

– ჩვენს მუნიციპალიტეტს ძალიან მდიდარი ბიბლიოთეკა აქვს კულტურის სახლში. მომხმარებელიც არის და ახალგაზრდებიც ბევრნი მიდიან. გაკეთდა 9 აპრილის სკვერი. როგორც გითხარით, „მეგობრობის სახლი"-ს გვერდზე ჩვენ დაგეგმილი გვაქვს დიდი პარკის რეაბილიტაცია. მერიასთან, შენობის გვერდზე არის ტერიტორია და გამწვანებულია, იქ პარკის მოწყობას ვგეგმავთ და ამ პარკში რა თქმა უნდა იქნება დასასვენებელი და ბავშვებისთვის სათამაშო მოედნებიც, ადგილებიც. ჩვენ გვაქვს მომავალი წლისთვის გათვლილი და უეჭველი დავიწყებთ სპორტის სასახლის მშენებლობას. მე მივეცი პირობა მოსახლეობას. ასევე ქალაქ გარდაბანში ვგეგმავთ კომპლექსური დარბაზის და საცურაო აუზის მშენებლობას.

*– ქალაქში ბევრ ადგილას ვამჩნევთ მაწანწალა ძაღლებს. მშობლებისგან ხშირად გვესმის, რომ ეს ძაღლები მათ შვილებს საფრთხეს უქმნიან. რამეს ხომ არ გეგმავთ ამ პრობლემის მოგვარებისათვის?*

– ქალაქში მაწანწალა ძაღლების რაოდენობა უკვე შემცირებულია. ტენდერი გვქონდა გამოცხადებული და უკვე 60-მდე ძაღლის გაყვანა და დამუშავება მოხდა. ძირითადად ველოდებით ცოდა ამინდი გათბეს და ძაღლები გამოვიდნენ. ისინი ახლა თავშესაფარში არიან ჩასული. სპეციალისტებმა თქვეს, რომ დათბება ამინდები და კიდევ გამოვლენ, მაშინ უფრო ადვილი იქნება მუშაობა.

*– გარე ვაჭრობასთან დაკავშირებით ახალი წესის შემოსვლის შემდეგ გარდაბნის მუნიციპალიტეტში რა ცვლილებები განხორციელდება?*

– ფასადების იერსახის გამო კომერციული ობიექტების მხრივ ჩვენ პირიქით მივესალმებით მშენებლობებს, რაც ბევრი აშენდება მით უკეთესია, ხალხიც მეტი დასაქმდება. მაგრამ ეს კონტროლზე გვყავს. სადღესასწაულო დღეები, როცა იყო გარე ვაჭრობისთვის ნებას ვრთავდით. ქალაქშიც არ არის ისეთი ბევრი გარე ვაჭრობა, ფიქსირდება მხოლოდ რამდენიმე ადგილას და ისინიც გაფრთხილებულები არიან. უნდა გადავიდნენ ბაზრის ტერიტორიაზე.

*– ქალაქში და სოფლებში ნაგვის ურნების დამატებასთან დაკავშირებით ან დასუფთავების მხრივ თუ იქნება რამე სიახლეები?*

– დასუფთავების მხრივ ქალაქ გარდაბანში პრობლემები არსებობს. აქამდე მთლიანად მუნიციპალიტეტს ემსახურებოდა ორი ნაგავმზიდი მანქანა. ახლა ორი ახალი ნაგავმზიდი მანქანაც ვიყიდეთ, რომელიც სოფლებს მოემსახურება. სოფლიდან თუ კვირაში ერთხელ გადიოდა ნაგავი ახლა ყოველ მეორე დღეს გავა. ინფრასტრუქტურის სამინისტრო გვაძლევს 120 დამატებით ნაგვის ურნას, რომელიც გადავანაწილებთ სოფლებში. სადაც ნაკლებობა გვაქვს იქ დაიდგმება ურნები.

*ინტერვიუ ჩაწერა: აინურა ალიევა*

# QARDABANİ BƏLƏDİYYƏSİNİN MERİ RAMAZ BUDAĞAŞVİLİNİN "YENİ YOL" QƏZETİNƏ EKSKLÜZİV MÜSAHİBƏSİ



***– Salam. Cənab Ramaz, müsahibəmizə Qardabani bələdiyyəsinin illik büdcəsindən başlayaq. Bu il bələdiyyə üçün ayrılmış büdcə nə qədərdir?***

– Salam. Gəldiyiniz üçün sizə təşəkkür edirəm. Bu il Qardabani bələdiyyəsi üçün ümumilikdə 34 milyon lariyə qədər büdcə ayrılıb. Yetərincə ciddi rəqəmdir və bununla çox işlər həyata keçirəcəyik.

***– İnfrastruktur layihələrindən danışaq. Bu sahədə hansı layihələr həyata keçirilib və nələr planlaşdırılır?***

– İçməli su ilə bağlı layihə artıq başlayıb və beş kəndə su veriləcək. İkinci mərhələ başlayacaq və gələn ilin may-iyun ayından bu beş kəndin artıq 24 saatlıq içməli su təchizatı olacaq. Çox böyük layihədir. Birinci mərhələdə layihə üçün 22 milyon lari ayrılmışdı və indi əlavə olunaraq 30 milyona qədər artıb. Bu layihəyə Muğanlı kəndi də qoşulacaq. Orada da yeni içməli su layihəsinə başlayırıq. Xatırladım ki, biz infrastruktur baxımından kəndlərdə artıq tenderlər elan etmişik. Bir neçə tender artıq daxil olub və qaliblər də var. 8 kənddə yolların bərpa işi planlaşdırılır. Bu kəndlər – Candar, Nəzərlı, Kosalı və Vaxtanqisidir. Qalan 4 kənddə - Ağtəhlə, Qaratəhlə, Sarticala və Qaracalarda da tender başa çatır. Həmçinin Qardabani şəhərində kilsənin ətraf ərazisində park qurmaq və ərazinin yenidənqurulması planımız var. Yolların bərpa işi üçün 2 milyon 800 min lari ayrılıb. Qardabani şəhərinin daxili yollarının qaydaya salınması, asfalt qatının tökülməsinə dair layihə işləri də gedir. Qardabanidə böyük problem olan kanalizasiya layihələri, Muxran-Teleti, Krdzanisi yollarının təmiri, binaların dam örtüyü, küçələrin işıqlandırılması da tenderə daxildir. Çoxmərtəbəli yaşayış binalarının liftləri qaydaya salınacaq və yeni, müasir liftlər quraşdırılacaq. Qardabani şəhərində daxili həyətlərin yenidənqurma işləri üçün layihəmiz var və bərpaya ehtiyac duyulur. Uşaqlar üçün əyləncə meydançaları, istirahət parkları olacaq. Xatırladım ki, iki böyük parkımız var – meriyanın ətrafında və "Dostluq evi"nin yanında yerləşən park. Gələcəkdə planımız var ki, "Dostluq evi"nin yanında yerləşən parkı bütövlükdə bərpa edək. Layihələrimiz çoxdur. Hal-hazırda demək olar ki, 40-a yaxın layihə üçün tender elan etmişik.

***– Uşaq bağçaları ilə bağlı hansı dəyişikliklər həyata keçirilib? Hansı bağçalarda təmir və ya yeni tikinti işləri planlaşdırılır?***

– 20 uşaq bağçasında artıq təmir işləri üçün tender elan olunub. Təxmini olaraq aprel ayının sonunda bütün tenderlər başa çatacaq. Qardabani şəhərində 5 uşaq bağçası, Lemşveniera kəndində və Sarticalada 2 uşaq bağçası, Zemo və Kvemo Teletidə, Satsxenisidə, Krdzanisidə, Axalsopeli, Norio, Mzianeti, Axali Samqori, Martğopinin 2 uşaq bağçasında və Qamarcveba uşaq bağçası üçün tender elan edilib. Ağtəhlə və Qaracalar kəndində yeni bağça tikilib, birinci mərhələ başa çatıb və ikinci mərhələ həyata keçiriləcək. Layihələrin ekspertiza işləri gedir. Eləcə də Saakadze və Qamarcveba kəndlərində yeni bağçanın tikilməsini planlaşdırırıq.

***– Təmir işləri nə zaman başlayacaq?***

– Hələ müqavilələr bağlanmayıb. Tender olaraq elan etmişik. Amma biz şərt qoymuşuq ki, yeni tədris ilinin başlanmasında, avqust ayının sonunda bu bağçalar artıq hazır və tam müvafiq standartlara uyğun olmalıdır. Uşaq bağçalarına uyğun bütün standartlar bu bağçalarda olacaq.

***– Bildirdiyinizə görə bir neçə kənddə artıq bağçalar tikilib. Yeni tikilmiş uşaq bağçaları nə zaman açılacaq?***

– Candar, Kalinino, Naqebi, Vaxtanqisi kəndlərində yeni bağçalar tikilib. Burada da ikinci mərhələ başlayıb və tender elan olunub. Bağçaların həyəti və daxili infrastrukturunun qurulması, su təchizatı prosedurlarının başa çatmamasına görə bağçaların açılışı hələ olmayıb. Buna görə layihə daxil etmişik və veb-səhifəyə də yerləşdirilib. 5 bağçada ikinci mərhələnin bərpa işləri də başa çatacaq. Həmçinin bağçalar üçün inventar almışıq. Bu il bütün kəndlərdə olan bağçalar bərpa olunacaq. Bələdiyyə ərazisində olan bütün bağçalar müasir tipli bağça standartlarına cavab verəcək. Bütün kəndlər yeni tədris ilini yeni bağçada qarşılayacaq.

***– Bağçaların təmir-bərpa işləri üçün nə qədər məbləğ ayrılıb?***

– Bağçaların bərpa işi üçün yerli büdcədən təqribən 4 milyon laridən çox məbləğ ayrılıb.

***– Bəzi bağçalarda bir qrupda 40 nəfər uşaq var. Yeni təmir olunmuş bağçalarda qrupların əlavə edilməsi planlaşdırılırmı?***

– Elə bağçalar var ki, böyük təmir olunmuş binadır, amma otaqlara çoxlu qruplar yerləşmir. Ona görə də bu bağçaların tam bərpası həyata keçiriləcək. Otaqların hamısı standarta uyğun olmalıdır ki, bağçalar çox yüklənməsin. Bunun üçün qrupların əlavə olunmasını planlaşdırırıq. Əlavə qruplar olacaq.

***– Əhalinin əksəriyyətindən eşitdiyimizə görə, suvarma suyu ilə bağlı olan problemlərdən şikayətlənirlər, bu baxımdan cari ildə vəziyyət necə olacaq?***

– Suvarma arxlarında təmizləmə işlərinə başlanılıb. Kənd təsərrüfatı xidmətində dövlət meliorasiya sistemi mövcuddur. Bir çox mərkəzi arxlar təmizlənib, Nəzərlı və Kosalı kəndlərində tam yeni xəttin bərpası həyata keçirilib və tikintilər başa çatıb. Bu mövsümdə suvarma sistemi tamamilə bərpa olunacaq.

***– Gürcüstan Təhsil Nazirliyi məktəblərin büdcəsini artıq yerli özünüidarəetmələrə verib. Qardabani bələdiyyəsində hansısa məktəbin təmiri və tikintisi olacaqmı?***

– Bu il Kumisi və Axalsopeli kənd məktəblərinin bərpası planlaşdırılır. İlkin mərhələdə dam örtüklərinin, pəncərə və qapıların dəyişdirilməsi olacaq. Bu layihəyə dair də tender elan etmişik. Bu məktəblər acınacaqlı vəziyyətdədir və yeni tikintiyə ehtiyac var. Başqa məktəblərdə də təmirə ehtiyac var, amma hələ ki, bu məktəblər qəza vəziyyətində olduğuna görə tikintini vacib hesab etdik.

***– Mədəni tədbirlər, gənclər üçün istirahət-əyləncə yerlərinin yaradılması baxımından bələdiyyədə hansı yeniliklər nəzərdə tutulur?***

– Bələdiyyəmizin Mədəniyyət Evində zəngin kitabxana var və gənclər də yetərincə istifadə edirlər. "9 aprel" parkı da quruldu. Qeyd etdiyim kimi "Dostluq evinin" ətrafındakı parkın bərpasını planlaşdırırıq. Meriyanın yanında yerləşən ərazi də yaşıl sahədir və park salmağı düşünürük. Parkda əlbəttə ki, istirahət yerləri və uşaqlar üçün oyun meydançaları olacaq. Mən əhaliyə vəd vermişəm. Həmçinin Qardabanidə kompleksli şəkildə zal və üzgüçülük hovuzunun tikilməsini də planlaşdırırıq.

***– Şəhərin çox yerlərində sahibsiz itlərə rast gəlirik. Tez-Tez valideynlər övladlarına təhlükə yarandığı üçün narazılıq edirlər. Bu problemin həlli üçün hansı işlər görülür?***

– Sahibsiz itlərin sayı artıq azalıb. Tender elan etmişdik və artıq 60-a yaxın sahibsiz it yığışdırılıb. Əsasən havaların istiləşməsini gözləyirik. Mütəxəssislər deyirlər ki, hava istiləşən zaman itlər gizləndikləri yerlərdən çıxırlar.

***– Küçə ticarəti ilə bağlı yeni qanunun daxil olmasından sonra Qardabani bələdiyyəsində hansı dəyişikliklər həyata keçiriləcək?***

– Şəhərin daha yaxşı görünüşünə görə yeni obyektlərin tikilməsini alqışlayırıq. Nə qədər çox tikilsə, o qədər yaxşıdır. Əhali də işlə təmin olunar. Amma bu məsələ bizim kontrolumuz altındadır. Bayram günlərində küçə ticarətinə icazə verirdik. Şəhərdə elə də çox yerdə küçə ticarəti yoxdur, bir neçə yerdə rastlaşmaq olar. Onlara da bazar ərazisinə keçmələri üçün xəbərdarlıq edilib.

***– Şəhərdə və kəndlərdə zibil qutularının əlavə edilməsi ilə bağlı və ya təmizlik baxımından hansısa yeniliklər gözlənilirmi?***

– Təmizləmə baxımından Qardabani şəhərində problemlər var. İndiyə qədər ümumi bələdiyyəyə iki zibil daşıyan maşın xidmət edirdi. İndi iki yeni avtomobil də alınıb və kəndlərə xidmət göstərəcək. Həftədə bir dəfə kənddən zibil daşınırdısa, indi gün aşırı daşınacaq. İnfrastruktur nazirliyi bizə 120 ədəd əlavə zibil qutusu verir və qutular kəndlərdə çatışmayan yerlərə qoyulacaq.

***Söhbətləşdi: Aynurə Əliyeva***



# XARİCDƏ TƏHSİL



*Gürcüstanda beynəlxalq iqtisadi münasibətlər üzrə bakalavr təhsilini başa vurduqdan sonra xaricdə magistr proqramına qəbul oldum. Alman Akademik Mübadilə Xidmətinin (DAAD) master təqaüdünə bakalavr proqramımın son kursunda təhsil alarkən müraciət etdim və təqaüdü qazandıqdan sonra təhsilimi Almaniyanın Kassel şəhərində davam etdirdim. DAAD alman dövləti tərəfindən dəstəklənən alman ali məktəblərinin birgə qurumudur. Gürcüstanda 1988-ci ildən təmsil olunur və 2004-cü ildən Tbilisi Məlumat Mərkəzi olaraq DAAD dünya şəbəkəsinə daxil olmuşdur (http://ic.daad.de/tbilissi/). Bir çox DAAD təqaüdçüləri magistr və doktorantura tələbələridir.*

Almaniya təhsil və tədqiqat üçün ideal bir ölkədir. Beynəlxalq səviyyədə ali təhsil, maraqlı şəhərlər və gözəl təbiət dünya ölkələrindən olan çoxlu insanları cəlb edir. Bu ölkə təkcə gözəl landşaftı və mənzərəsi ilə deyil, həmçinin inkişaf etmiş iqtisadiyyatı və ilklərə imza atan ixtiraları ilə də insanları heyran edir. Burada 380-ə yaxın universitet və tətbiqi yönümlü ali məktəblər (Fachhoschulen) mövcuddur ki, özünün uzunmüddətli ənənəsi və yüksək akademik səviyyəsi ilə çox yaxşı nüfuza malikdir. Almaniya universitetləri texniki cəhətdən çox yaxşı təşkil olunmuş laboratoriyalarla yanaşı, zəngin kitabxanalara da malikdir. Buna görə Almaniya beynəlxalq tələbələr arasında dünyada üçüncü ən məşhur təhsil ölkəsidir. Burada əldə edilən keyfiyyətli təhsil digər ölkələrlə müqayisədə çox sərfəlidir. Dövlət sektoruna aid olan əksər universitetlərdə bir çox ixtisaslar üzrə təhsil ödənişsizdir.

Müasir hərəkətli meqapolis və ya sakit kiçik bir şəhərdə yerləşməyindən asılı olmayaraq, alman ali məktəb məkanları yaşayış və təhsil üçün ideal imkanlar təklif edir. Almaniya ali təhsilinin əsas prinsipi "akademik sərbəstlik" sistemidir. Bu sistem hər bir tələbəyə öyrənmək istədiyi fənnlərin siyahısını müəyyənləşdirmək imkanı yaradır. Almaniyanın ali təhsili təlim prosesi ilə elmi tədqiqatların birləşdirilməsini də nəzərdə tutur. Belə ki, universitetlərdə hər semestr mühazirə (14-20 həftə) və qeyri-mühazirə dövrlərindən ibarətdir. Qeyri-mühazirə dövründə tələbələr müstəqil elmi işlə məşğul olurlar. Qiymətləndirmə sistemi də fərqlidir. Qiymətləndirmə prosesi imtahanlardan daha çox kurs işləri üzrə aparılır. Oxumaq nə qədər maraqlı olsa da, bir o qədər çətindir. Adətən tələbələrin ən çox getdiyi yer kitabxanalar olur. Qruplara bölünmüş tələbələr aylarla bir layihə üzərində çalışıb semestr sonunda onu təqdim edirlər. Mühazirə zamanı da qrup işlərinə və müzakirələrə çox önəm verilir. Kurslar daha çox interaktivdir və tələbələr müzakirələrdə fəal iştirak edirlər.

Ümumiyyətlə, xaricdə təhsil almaq önəmli həyat təcrübəsidir. İlk öncə tamamilə yad bir ölkədə tək qalmaq, müxtəlif vəziyyətlərdə problemlərin həlli yollarını tapmaq bacarığı yaradır. Yeni mədəniyyətlə tanışlıq, yeni dil, yeni insanlar və yeni mühit isə xaricdə təhsilin əsas üstünlüklərindəndir. Xaricdə təhsil alarkən fərqli baxışlar, adətlər və fəaliyyətlərlə dolu yeni bir ölkədə təcrübə qazanmış olursunuz. Əlavə olaraq, orada olduğunuz müddət ərzində sizin həmçinin təhsil aldığınız ölkə ilə qonşu ölkələri də gəzmək şansınız olur. Və ən önəmlisi, xaricdə təhsilin ən böyük müsbət tərəflərindən biri sizə müxtəlif ölkələrdən olan dostlar qazandırmaqdır.



**Seva Karaeva**
*Almaniya, Kassel Universiteti, İctimai elmlər fakültəsi*

## APREL AYINDAN 12-Cİ SİNİF ŞAGİRDLƏRİNİN BURAXDIQLARI DƏRS SAATLARI HESABLANMAYACAQ

Cari ilin aprel ayının 24-dən 12-ci sinid şagirdlərinin buraxdıqları dərs saatları hesaba alınmır. Belə ki, məzun olacaq şagirdlərin, abituriyentlərin dərsdə iştirak etməmək hüququ var. Gürcüstanın təhsil və elm nazirinin müavini Lia Qiqaurinin məlumatına əsasən, müvafiq sərəncam artıq imzalanıb.

12-ci sinif şagirdlərinin 2018-ci il, 24 aprel tarixindən 18 may tarixi də daxil olmaqla dərsdə iştirak etmədikləri saatlar hesablanmayacaq. Ancaq bu vaxt ərzində onlar üçün məktəbdə dərs prosesi adi rejimdə gedəcək. Paralel olaraq şagirdin məktəbi ekstern formada bitirməsinin müəyyən edilməsi üçün buraxılmış dərs saatları aprel ayının 23-ü də daxil olmaqla məktəb tərəfindən hesablanacaq. Bununla məlum olacaq ki, şagirdə ekstern formada proqramda iştirak etmək hüququ verilir, ya yox.

Şagird tərəfindən ekstern forma ilə proqramda iştirak etmək məsələsi nazirin sərəncamına əsasən müəyyənləşir və aşağıdakı nəticəni nəzərdə tutur:

"Əgər baza/orta pillələrdə şagird tədris ili ərzində konkret fənn üzrə ayrılmış saatların 30% və ya daha çoxunda iştirak etməyibsə, şagird yalnız ekstern imtahanların verilməsi əsasında qiymətləndirilir", - yazılıb Milli Tədris Planında.

Qeyd edək ki, 12-ci sinif şagirdləri bu il tədris prosesini may ayının 18-də başa vuracaqlar.

## 2018-Cİ İLİN VAHİD MİLLİ İMTAHANLARI ÜÇÜN 40 500-Ə QƏDƏR ABİTURİYENT QEYDİYYATDAN KEÇİB

Bu il imtahanlar üçün qeydiyyatdan keçmiş abituriyent, magistr və qrant səviyyəsinin yaxşılaşdırılması istəyi olanların, eləcə də pedaqoqların və pedaqoq olmaq istəyənlərin sayı artıq məlumdur. Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzindən bildiriblər ki, qeydiyyatdan keçmiş abituriyentlərin sayı imtahan verənlərin sayından fərqli olacaq. Çünki onlara məktəb buraxılış imtahanlarını verə bilməyənlər də qoşulacaq.

Mərkəzin rəhbərinin müavini İva Mindadze müraciət edənlərin keçməli olduğu imtahanlardan və seçimdə dəyişiklik etmək tarixləri haqqında danışıb.

– Bu il təqribən 40 500-ə qədər abituriyent qeydiyyatdan keçib. Ancaq qeyd edim ki, bu rəqəm yekun göstərici deyil, çünki buraxılış imtahanları bunu dəyişəcək.

21 minə qədər pedaqoq və pedaqoqluq istəyi olan, 12 mindən çox magistr istəyi olan var. Qrant səviyyəsini yaxşılaşdırmaq üçün qeydiyyatdan keçən tələbələrin sayı isə təqribən 5 minə qədərdir.

***– Keçən illərlə müqayisədə abituriyentlərin sayında dəyişiklik olubmu?***



– Ən çox 2015-ci ildə qeydiyyatdan keçiblər – 42 min. Həmin ildən başqa, hər il təqribən 40-dan 41 minə qədər qeydiyyat olur. Bu baxımdan böyük dəyişiklik olmur.

***– Son illər ərzində milli imtahanlarda təqribən eyni sayda abituriyentin qeydiyyatdan keçməsi abituriyentlər arasında peşəkar təhsil müəssisələrinin hələ də tanınmamasının göstəricisi deyil ki? Bu məlumat nəticə çıxarmaq imkanı vermirmi?***

– Mən başqa cür yanaşardım. Abituriyentlərin sayına əsaslanmazdım, çünki burada keçən il məktəbi bitirənlər də çoxdur. Yalnız 12-ci siniflər deyil. Peşəkar imtahanlara qeydiyyat olanların sayı ildən ilə artır. Keçən payızda qeydiyyat olmaq istəyini bildirənlər 10 mindən çox idi. Əvvəlki illərdə bu qədər deyildi. Yəni tendensiya artır.

***– Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzində Vahid Milli İmtahanların başlamasına qədər hansı atılası addımlar qalıb və qəbul imtahanları nə zaman başlayacaq?***

– May ayının 15-nə qədər abituriyentlərin seçdikləri fənni dəyişmək imkanı olacaq. Bundan sonra artıq biləcəyik ki, hansı fənndən neçə nəfər imtahan verir. Həmçinin 15 may tarixindən sonra, hardasa 15 avqusta qədər abituriyentlər tədris proqramlarına da dəyişiklik daxil edə biləcəklər. Yəni hansı ali təhsil müəssisəsində, hansı fakültədə və hansı istiqamətdə təhsillərini davam etdirmək istəyirlər. Bu, əsasən iki mərhələdən ibarətdir. Dəqiq tarix may ayının sonunda, buraxılış imtahanlarından sonra məlum olacaq.

***Gürcü dilindən tərcümə: Aynurə Əliyeva***

## KVEMO KARTLİ QUBERNATORU ƏZİZKƏND KƏNDİNDƏ OLUB



Kvemo Kartli bölgəsinin qubernatoru Qriqol Nemsadze Əzizkənd kəndində Ana dili gününə həsr olunmuş tədbirə qatılıb.

Qubernator təşkilatçıları və məktəbliləri Ana dili günü münasibətilə təbrik edərək etnik azlıqların gürcü dilini bilməsinin vacibliyini vurğulayıb.

"Regionda yaşayan milli azlıqları təmsil edənlərin dövlət dili ilə bağlı tədbirlərdə fəal iştirakı sevindirici haldır. Bu sahədə müəllimlər böyük töhfə verirlər. Müəllimlər gələcək nəsillərə gürcü dilini daha yaxşı tədris etməyə və onların cəmiyyətə inteqrasiyasına kömək etməyə çalışırlar", - deyə qubernator çıxışı zamanı bildirib.

Tədbirdə məktəblilər gürcü dilində müxtəlif ədəbi-bədii kompozisiyalar təqdim ediblər. Mərasimdə Marneuli rayonunun icra başçısı Temur Abazov, rayonun bələdiyyə məclisinin sədri Amiran Giorqadze və digər rəsmi şəxslər iştirak edib.

Qeyd edək ki, Gürcüstanda Ana dili günü aprelin 14-də qeyd olunur.

## TÜRKİYƏ KÖKUMƏTİ MARNEULİ AERODROMUNU YENİLƏYƏCƏK

Türkiyə hökuməti Marneuli hərbi aerodromunun modernləşdirilməsi üçün Gürcüstana 5,5 milyon türk lirəsi (1,3 milyon dollar) ayırıb. Vəsaitin bir hissəsi aerodromun yenilənməsi, digər hissəsi və əvvəlki illərdə istifadə olunmamış 3,88 milyon dollar isə hərbi mühəndis məktəbinin yaradılmasına sərf ediləcək.

Türkiyə həmçinin Marneuli aerodromunu müdafiə avadanlıqları ilə də təmin edəcək.

## QARDABANİ SAKREBULOSUNDA AVROPA ÇEMPİONU İSFAHAN ƏLİYEVLƏ GÖRÜŞ KEÇİRİLİB



Qardabani sakrebulosunun sədri Tariel Canxoteli Avropanın WFMC versiyası üzrə K1 peşəkar çempionatında kəmər sahibi olan İsfahan Əliyevlə görüşüb və onu qələbəsi münasibətilə təbrik edib.

İsfahan Əliyev 14 aprel tarixində Almaniyanın Haiger şəhərində baş tutan Avropa çempionatında 62 kq çəki dərəcəsində Gürcüstanı təmsil edərək yarışıb. O, alman rəqibi Max Musalçiki məğlub edərək qələbə çalıb.

Görüşdə Qardabani meriyasının təhsil, mədəniyyət, gənclər və idman xidmətinin rəhbəri Avto Canxoteli və Qardabani Bələdiyyəsinin İdman Mərkəzinin direktoru Zura Bendeliani də iştirak ediblər.

## MARNEULİDƏ NATO GÜNLƏRİ ÇƏRÇİVƏSİNDƏ TƏDBİR KEÇİRİLİB



"Marneuli böyük potensialı, tarixi və gələcəyi olan şəhərdir. Marneuli şəhər ictimaiyyəti fəal olmaqla yanaşı, Gürcüstanın inkişafı prosesinə mümkün qədər çox dəstək verməyə hazırdır". Bu sözləri Gürcüstan baş nazirinin müavini, xarici işlər naziri Mixeil Canelidze NATO Günləri çərçivəsində Marneulidə keçirdiyi görüşdə deyib. Nazir NATO Günləri çərçivəsində ilk görüşün Marneulidə keçirilməsindən məmnunluq ifadə edib. O, görüş iştirakçılarına Gürcüstanın avroatlantik məkana inteqrasiya prosesi və bu yolda əldə etdiyi tərəqqidən danışıb: "NATO bizim təhlükəsizliyimiz üçün seçimdir. Bizim müdafiə imkanlarını genişləndirmək hüququmuz var və aqressiya ilə mübarizə aparmaq üçün güclü dövlət olmalıyıq".

M. Canelidze qeyd edib ki, Gürcüstan NATO və Aİ-yə heç zaman bu qədər yaxın olmayıb: "Bizim məqsədimiz bu əməkdaşlıq çərçivəsində daha çox sülh, sabitlik və təhlükəsizlik təmin etməkdir".

Sual-cavab formatında keçirilən görüşdə yerli idarəetmə orqanları, QHT və media nümayəndələri iştirak edib.

Tədbirə Kvemo Kartlinin qubernatoru Qriqol Nemsadze, Marneuli rayonunun icra başçısı Temur Abazov, Gürcüstanda NATO ofisinin rəhbəri Rozariya Pulisi də qatılıb.

## QARDABANİDƏ KİKBOKSİNQ ÜZRƏ BEYNƏLXALQ YARIŞ KEÇİRİLİB



Qardabani bələdiyyəsi Qaracalar kəndinin ictimai məktəbinin idman zalında kikboksinq üzrə beynəlxalq yarış keçirilib.

20, 21 və 22 aprel tarixlərində baş tutan yarışda Gürcüstanda Tayland boksu və kikboksinq üzrə milli federasiyanın prezidenti Qoça Cavaxia, Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili və yerli özünüidarəetmənin digər rəhbər şəxsləri iştirak ediblər.

Yarış "Fila" Federasiyası tərəfindən təsdiqlənmiş qaydalara əsasən baş tutub. Birincilik yarışında gürcü idmançılarla yanaşı Azərbaycandan və İrandan gəlmiş idmançılar da iştirak ediblər. Qalib gələnlərin bir hissəsini Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili mükafatlandırıb.

Qeyd olunan açıq birincilik yarışı artıq Kikboksinq Federasiyasının plan-təqviminə düşüb. Bu, gələn ildən turnirdə daha çox yerli və xarici idmançıların iştirak edəcəyinin göstəricisidir.

Turnirin keçirilməsinin məqsədi yerli və başqa regiondan, qonşu ölkələrdən gəlmiş perspektivli idmançıların aşkar edilməsidir. Yarış Qardabani bələdiyyəsinin İdman Mərkəzinin təşkilatçılığı ilə baş tutub.

## DMANİSİDƏ YENİ TİBB MƏRKƏZİNİN AÇILIŞI OLUB



Dmanisi şəhərində yeni Tibb Mərkəzinin açılışı olub. Mərkəz əsasən diabet və digər qeyri-yoluxucu xəstəliklərdən əziyyət çəkənlər üçün nəzərdə tutulub. Tibb Mərkəzi iki mərtəbəlidir və müasir standartlara cavab verən maddi-texniki bazası və ayrı-ayrı yemək otaqları var. Bina idman və əyləncə tədbirləri üçün böyük bir həyətə malikdir. Mərkəzdə xəstələr üçün lazımi tibbi informasiya və xəstəliklərin öhdəsindən gəlmək üçün xəstələrə yardım məqsədilə tibbi təhsil proqramları da həyata keçiriləcək.

Mərkəzin açılışında Kvemo Kartli qubernatoru Qriqol Nemsadze, Dmanisi meri Giorgi Tatuaşvili və digər rəsmi şəxslər iştirak ediblər.

Qeyd edək ki, Tibb Mərkəzində fəaliyyət göstərəcək layihə ABŞ Müdafiə Nazirliyinin Humanitar Yardım Proqramı tərəfindən maliyyələşdirilib. Layihə ABŞ-ın Əməkdaşlıq Agentliyi və ABŞ-ın Müdafiə Nazirliyi ilə birgə Əməkdaşlıq çərçivəsində hazırlanıb.

Açılışdan sonra Tibb Mərkəzinə baxış keçirilib.

## QARDABANİ MERİ VƏ SAKREBULO SƏDRİ MARTĞOPİ VƏ NORİODA FƏALİYYƏT GÖSTƏRƏN UŞAQ EVLƏRİNƏ HƏDİYYƏLƏR VERİBLƏR

Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili və sakrebulo sədri Tariel Canxoteli digər vəzifəli şəxslərlə birgə Martğopi və Norio kəndlərində fəaliyyət göstərən uşaq evinin yetirmələrinə hədiyyələr veriblər.

Yetirmələrə hədiyyə olaraq velospied təqdim olunub. Nümayəndələrin dediyinə görə, yetirmələrin istəyinin həyata keçirilməsi gələcəkdə də davam edəcək.

Martğopi kəndinin "Bizim ev" adlanan kiçik ailə tipli uşaq evində səkkiz, Norio kəndinin "Uşaq və mühit" adlı uşaq evində isə yeddi yetirmə yaşayır. Onlar fəal şəkildə müxtəlif mədəni, idman və maarifləndirici aktivliklərə qoşulublar.

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 APREL 2018-Cİ İL
№006 (65)

## PASPORT NƏDİR?

Pasport ölkə daxilində və onun hüdudlarından kənarda vətəndaşın şəxsiyyətini və vətəndaşlığını təsdiqləyən sənəddir.

Gürcüstan vətəndaşlara elekton daşıyıcısı olan biometrik pasport verir. Biometrik pasporta vətəndaşın şəxsi məlumatı, elektron fotoşəkil və barmaq izləri köçürülür.

**BİOMETRİK PASPORTUN HANSI ÜSTÜNLÜKLƏRİ VAR?**

- Biometrik pasport ən yüksək texnologiyaya uyğundur və səyahət zamanı hər növ saxtakarlıqdan mühafizə olunmuş sənəddir;
- Biometrik pasportun qəbul edilməsi Avropa İttifaqı ilə vizasız rejimi əhəmiyyətli dərəcədə asanlaşdırdı;
- Biometrik pasporta sahib olan vətəndaşlar müxtəlif ölkələrin sərhədlərini asan keçə bilirlər;
- Biometrik pasportla dövlət tərəfindən verilən sənədlərin etibarlılığı əhəmiyyətli dərəcədə artdı;

**PASPORT KİMƏ VERİLİR?**

Pasport xarici ölkələrə getmək və Gürcüstana daxil olmaq məqsədi ilə müxtəlif yaşda olan Gürcüstan vətəndaşlarına verilir.

**BİOMETRİK PASPORTU NECƏ ALMAQ OLAR?**

Pasport almaq üçün Ədliyyə Evinə və ya Dövlət Xidmətləri İnkişaf Agentliyinin müvafiq ərazi xidmətinə müraciət etmək lazımdır.

Pasport almaq üçün siz 14 yaşını keçmiş şəxs olmalısınız və şəxsiyyəti təsdiqləyən sənədiniz olmalıdır.

Yetkinlik yaşına çatmamış şəxsin müraciət etməsinə görə, onun valideyni və ya qanuni nümayəndəsi səlahiyyət daşıyır.

**18 YAŞINA ÇATMAMIŞ GÜRCÜSTAN VƏTƏNDAŞININ PASPORT ALMASI ÜÇÜN HANSI SƏNƏDLƏR TƏQDİM EDİLMƏLİDİR?**

- Doğum haqqında şəhadətnamə;
- 16 yaşa qədər olan şəxslər üçün hər iki valideynin razılığı, 16-dan 18 yaşa qədər olan şəxslərin pasport almaları üçün bir valideynin razılığı kifayətdir (pasport forması Ədliyyə Evində və ya notarius bürosunda doldurulur).

**PASPORTU DƏYİŞMƏK NƏ ZAMAN MƏCBURİDİR?**

- Qüvvədə olma müddəti başa çatdıqda;
- Ad və ya soyadı dəyişən zaman;
- Qeydlərdə qeyri-dəqiqlik olan zaman;
- Viza və qüvvədə olma müddətini uzatmaq üçün müəyyən olunmuş səhifələrin dolması zamanı;
- Pasporta zərər dəyən zaman;




**PASPORT HANSI MÜDDƏTƏ VERİLİR?**

- 18 yaşı tamam olmuş şəxslərə - 10 illik müddətə.
- 18 yaşa qədər olan şəxslərə - 3 illik müddətə.
- İkinci və hər növbəti pasport bir illik müddətə verilir.

**BİOMETRİK PASPORTUN ALINMA MÜDDƏTİ VƏ QİYMƏTİ:**

| Müddət | Tarif |
|---|---|
| 10 iş günü | 100 lari |
| 5 iş günü | 120 lari |
| 3 iş günü | 150 lari |
| 24 saat | 190 lari |
| Həmin gün | 205 lari |

**KİM GÜZƏŞTLƏRDƏN İSTİFADƏ EDİR?**

- İkinci dünya müharibəsi iştirakçıları – pulsuz
- Gürcüstanın ərazi bütövlüyü, azadlığı və müstəqilliyi üçün mübarizələrdə əlil olmuş Gürcüstan vətəndaşları – pulsuz
- Gürcüstan Konstitusiyasına uyğun olaraq Gürcüstan vətəndaşlığı verilmiş xarici ölkə vətəndaşları, əgər vətəndaşlıq verilmə təşəbbüsü Gürcüstan prezidentinə məxsusdursa – pulsuz
- Müharibə və hərbi qüvvə veteranları – 50 lari (100 lari əvəzinə)
- Məcburi köçkünlər – 50 lari (100 lari əvəzinə)
- Kəskin və əhəmiyyətli dərəcədə fiziki imkanları məhdud olan şəxslər – 50 lari (100 lari əvəzinə)
- 18 yaşa qədər olan şəxslər – 50 lari (100 lari əvəzinə)
- "Tələbə" qeydi ilə elektron şəxsiyyət vəsiqəsi verilmiş tələbələr və əlaqəsiz mikrosxemdə tələbənin statusu haqqında məlumat olmaqla – 95 lari (100 lari əvəzinə)

## DÜNYANIN ƏN YAŞLI İNSANI VƏFAT ETDİ

Dünyanın uzunömürlülər siyahısına başçılıq edən yaponiyalı xanım Nabi Tacima aprelin 21-də ölkənin cənub-qərbində yerləşən xəstəxanada 117 yaşında vəfat edib.

"Ginnesin rekordlar kitabı"na görə Nabi Tacima 2016-cı ilin sentyabrından, Yamayka sakini xanım Vayolet Braun vəfat etdikdən sonra dünyanın ən yaşlı qadını hesab olunurdu.

Vayolet Braundan cəmi beş ay kiçik olan Nabi Tacima Kaqoşima prefekturasının Kikay adasında yaşayırdı.

## 2018-Cİ İLİN 1 MAY TARİXİNDƏN TÜTÜN VƏ ELEKTRO SİQARETİN ÇƏKİLMƏSİ BƏZİ MÜƏSSİSƏLƏRDƏ, HƏMÇİNİN BAR VƏ RESTORANLARDA QADAĞAN OLUNACAQ



**Siqaret çəkmək qadağan olunacaq yerlər:**

- Bina-tikililər;
- İctimai nəqliyyat;
- Təhsil müəssisəsi və 18 yaşa qədər olan şəxslər üçün nəzərdə tutulmuş yerlər;
- Tibbi və əczacılıq müəssisələrinin mülkünə daxil olan ərazilər;
- Yanacaq doldurma məntəqələri və onların mülkünə daxil olan, yanma təhlükəsi daşıyan maddələrin saxlanıldığı yerlər;

**İstisna hallar – tütün çəkməyə izin verilir:**

- Taksi və katerdə;
- Fiziki şəxsin evində;
- Kazinolarda;
- Müvəqqəti saxlama təcridaxanalarında;
- Həbsxanalarda;
- Tütün tüstüsünün araşdırıldığı xüsusi laboratoriyalarda;
- Siqar barda;
- Rəhbərin xüsusi sərəncamı olduğu halda stasionar psixiatrik və palliativ müayinə üçün nəzərdə tutulmuş müəssisədə;
- Hava limanının tranzit zonasında tütün çəkmək üçün ayrılmış yerdə;
- Stadionun inzibati ərazisində (2020-ci ilə qədər).

**Qayda pozuntusuna görə cərimələrin miqdarı:**

- Bina-tikilidə və ya ona aid ərazidə siqaret çəkilməsi üçün cərimə 500 laridir, təkrar olunduğu halda cərimə ikiqat olur;
- Çoxmənzilli evin damında və liftində siqaret çəkilən zaman cərimə 50 laridir, təkrar olunduğu halda cərimə ikiqat olur;
- Qaydaları pozan halda müəssisə 500 lari dəyərində məbləğlə cərimələnəcək, təkrar olunduğu halda cərimə ikiqat olur;
- İctimai nəqliyyat sürücüləri nəqliyyatda siqaret çəkərsə 500 lari dəyərində məbləğlə cərimlənəcəklər, təkrar olunduğu halda cərimə ikiqat olur;
- Fiziki şəxs ictimai nəqliyyatda siqaret çəkərsə 50 lari dəyərində məbləğlə cərimələnəcək, təkrar olunduğu halda cərimə ikiqat olur.

## "MƏNİM İLK GÜRCÜ ROLUM" MÜSABİQƏSİNİN QALİBLƏRİ MÜKAFATLANDIRILIB

Gürcüstanın Elm və Təhsil Nazirliyi qeyri-gürcü dilli ümumtəhsil müəssisələrinin şagirdləri üçün "Mənim ilk gürcü rolum" adlı müsabiqə keçirib. Müsabiqənin finalı Tbilisidə, Rustaveli teatrında baş tutub.

Birinci yeri Saqareco bələdiyyəsinin Duzaqram kəndinin ictimai məktəbi, ikinci yeri Tbilisinin 96 saylı ictimai məktəbi, üçüncü yeri isə Axaltsixe şəhərinin 3 saylı ictimai məktəbi tutub.

Jürinin bəyənməsini isə Qardabani bələdiyyəsinin Muğanlı kənd ictimai məktəbi qazanıb. Qalib komandalar Rustaveli teatrında öz tamaşalarından fraqmentlər təqdim ediblər. Yekunda isə elm və təhsil naziri Mixeil Çxenkeli, barış və vətəndaş bərabərliyi üzrə dövlət naziri Ketevan Tsixelaşvili və Parlamentin təhsil və mədəniyyət komitəsinin sədri Mariam Caş finalçılara pul mükafatı və diplomlar təqdim edib. Mixeil Çxenkelinin qərarı ilə qalib gələn şagirdlər tətildə Batumidə musiqili yay düşərgəsində istirahət edəcəklər.

Müsabiqə Zurab Jvaniya adına Dövlət Administrasiya Məktəbinin, Barış və Vətəndaş Bərabərliyi üzrə Dövlət Naziri Aparatı və Gürcüstan Mədəniyyət və İdman Nazirliyinin dəstəyi ilə həyata keçirilib. Müsabiqənin məqsədi etnik azlıq nümayəndəsi olan şagirdlərə gürcü dilini öyrənməkdə dəstək olmaq, dövlət dilində nitq bacarıqlarının inkişafı və qabiliyyətlərin aşkarlanmasıdır.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər Musaoğlu
**Yayım Direktoru:** Hacı Bəkiroğlu
**Qrafik dizayn:** Elsevər Əhmədov

**ÜNVAN:** Qardabani şəh. Kolxoz küç, 4
**TEL:** (+995) 555 96 18 68
599 54 12 92
**EMAİL:** yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.